# Məryəm surəsi; 1-4 (Allaha dua edərkən gizlicə, yalvara-yalvara dua etmək çox məqbuldur. Dua edən xoşbəxt olar.)

**Adnan Oktarın 18 mart 2011 Kaçkar Tv-dəki canlı söhbətindən**

**ADNAN OKTAR:** Şeytandan Allaha sığınıram. Məryəm surəsi, Rəhman Rəhim olan Allahın adıyla. Şeytandan Allaha sığınıram. **"Qaf, Ha, Ya, Ayn, Sad. (Bu) Rəbbinin qulu Zəkəriyyaya rəhmətinin zikridir. Nə zaman o, Rəbbinə gizlicə səsləndiyi zaman;"** Allaha dua edərkən gizlicə dua etmək çox məqbuldur, gizlicə için-için, yalvara-yalvara. **"Demişdi ki: "Rəbbim, şübhəsiz mənim sümüklərim boşaldı."** Yaşlılıqda kalsium bədəndən getdiyi üçün, sümüklər yavaş-yavaş əriməyə və kiçilməyə başlayar. İnsanın həm boyunda qısalma olar, həm həcmində kiçilmə olar, onun üçün kalsium alınması lazımdır. Əlavə kalsium qəbul edilməsi lazımdır. Buna baxmayaraq yenə olar, amma alınan kalsium o sürəti azaldar, inşaAllah. **"Baş, yaşlılıq alovu ilə alovlandı;"** saçlarda ağarma olur, yaşlılıq alovu ilə alovlandı o. "**Mən sənə dua etməklə bədbəxt olmadım."** Deməli, dua edən xoşbəxt olur, Quran buna işarə edir.

https://www.harunyahya.info/az/meqaleler/meryem-suresi-1-4-allaha-dua-ederken-gizlice-yalvara-yalvara-dua-etmek-cox-meqbuldur-dua-eden-xosbex